# "Diplomatic World Sweden" Azərbaycanın görməli yerlərindən yazıb

Diplomatların, siyasətçilərin, həmçinin İsveçdə akkreditə olunmuş diplomatik korpusun əməkdaşlarının əsas auditoriyası olan "Diplomatic World Sweden" portalında Azərbaycanın görməli yerlərindən bəhs edilən məqalə dərc olunub.

AZƏRTAC xəbər verir ki, "Azərbaycanı ziyarət et" sərlövhəli məqalənin müəllifi qədim memarlıq və müasir şəhərsalmanın füsunkar vəhdətinin şahidi ola biləcəyiniz Odlar Yurduna səyahətə yollanmağı tövsiyə edir.

Məqalədə İçərişəhər, Abşeron Milli Parkı, Qarasu vulkanı, Naftalan kurortu, Qobustan kimi görməli yerlər,




eləcə də Azərbaycanın mənzərəli subtropik dəniz kurortları barədə müfəssəl məlumat verilir.

Müəllif sonda yazır: "Avropa və Asiyanın qovşağında yerləşən Azərbaycanın səyahətçilərə təklif edəcəyi çoxlu sayda görməli yer var. Ziyarət etməyə dəyər!"

Azərbaycan.- 2024.- 28 avqust (№ 184).- S.12.